*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 11-17* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2023.1.11*

**AZƏRBAYCAN ƏDƏBİYYATI**

***Ortaq başlanğıc və İntibah dövrü***

# Qətran Təbrizi irsində Yusifin hekayəsi

**Ülkər Zakirqızı (Məmmədova)**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: u.z.m-9-9@ mail.ru

**Annotasiya.** Orta əsrlər Azərbaycan ədəbiyyatında geniş istifadə olunmuş mövzulardan biri dini hekayələrdir. Məqalə Yaqub peyğəmbərin oğlu Yusifin hekayəsi əsasında yazılmışdır. Burada əvvəl Yusifin həyatı və başına gəlmiş əhvalatlar Bibliya və Qurani-Kərimdən nümunələr əsasında göstərilmişdir. Sonra Qətran Təbrizi yaradıcılığında bu hekayələrin hər bir mərhələsini əks etdirən ifadələr, müqayisələr təqdim olunmuşdur. Qardaşlarının Yusifə həsəd aparması, quyuya salınması, qul kimi tacirlərə satılması, Misirə aparılması, Züleyxanın məkri, zindana salınması, zindandan çıxarılaraq taxta yüksəlməsilə bağlı hekayə şairin məmduhunun məziyyətlərini göstərərkən istifadə edilmişdir. Dini kitablardakı əhvalatlar Qətran Təbrizi yaradıcılığından gətirilmiş uyğun nümunələrlə müqayisəli, paralel şəkildə verilmişdir.
**Açar sözlər:** Orta əsrlər, Azərbaycan ədəbiyyatı, Qətran Təbrizi, Yusif, dini hekayə

**Məqalə tarixçəsi:** göndərilib – 05.02.2023; qəbul edilib – 20.02.2023

# A story about Yusuf in the heritage of Qatran Tabrizi

**Ulker Zakirgizi (Mammadova)**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: u.z.m-9-9@ mail.ru

**Abstract.** Religious stories are one of the widely used subjects in medieval Azerbaijani literature. The article is written on the basis of the story of Yusuf (Joseph), the son of the prophet Yakub (Jacob). Here, first of all, the life of Yusuf and the events that happened to him are shown, using examples from the Bible and the Koran. Then expressions and comparisons were presented, reflecting each stage of these story in the work of Qatran Tabrizi. The envy of his brothers for Yusuf, being thrown into a well, being sold into slavery to merchants, taken to Egypt, Zuleikha's cunning, imprisonment, the story of his release from prison and enthronement was used by the poet to show the virtues of his memdukh. The stories in religious books are given in a comparatively parallel form with corresponding examples from the works of Qatran Tabrizi.
**Keywords:** Middle Ages, Azerbaijani literature, Qatran Tabrizi, Yusuf, the religious story

**Article history:** received – 05.02.2023; accepted − 20.02.2023

## Giriş / *Introduction*

Peyğəmbərlərin və övliyaların həyatı ilə bağlı hekayələr monoteizmə əsaslanan dini kitabların bədii təmayüllərini artıran cəhətlərdəndir. Həmin hekayələr Tanrı tərəfindən seçilmiş şəxslərin həyatını, ömür yolunu əks etdirməklə yanaşı, ədəbi nümunələr üçün əvəzsiz mövzular sayılmışdır. Orta əsrlər Şərq, o cümlədən Azərbaycan ədəbiyyatı tarixində dini hekayələrdən geniş istifadə olunmuşdur. Bu rəvayətlərdən biri dini kitablarda dözümü, ədaləti, imanı ilə insanlara nümunə göstərilən Yaqub peyğəmbərin oğlu Yusifin hekayəsidir. Farsdilli Azərbaycan ədəbiyyatının ilk görkəmli nümayəndəsi sayılan Qətran Təbrizi (1012-1091) zəkada, məziyyətlərilə həsəd doğurduğuna, məkrə uğramaqda və bu kimi hallarda öz məmduhunu Yusifə bənzətmişdir.

Yusifin yeniyetməlik yaşlarından ağlı, zəkası, gözəlliyilə seçilməsi, qısqanc qardaşları tərəfindən quyuya salınması və sonralar başına gələn əhvalatlar ədəbiyyatımızda geniş əksini tapmış mövzulardandır. Klassik Azərbaycan ədəbiyyatına nəzər saldıqda, XV əsrdə qələmə alınmış anadilli epik şeirimizə aid "Yusif və Züleyxa" adlı üç məsnəvi günümüzədək gəlib çatmışdır. Onlardan biri Əhmədi Təbriziyə, digər ikisi isə ədəbiyyat tariximizə yalnız "Yusif və Züleyxa" məsnəviləri ilə daxil olan Şəmsi (Şəms) və Xətayi Təbriziyə aiddir [5, s.435].

## Əsas hissə / *Main part*

Yusif peyğəmbərin həyatı ilə bağlı hekayənin ilkin qaynağı müqəddəs kitablardır. Bibliyada və Qurani-Kərimdə Yaqub peyğəmbərin nəsli, həyatı ilə bağlı hekayələrə rast gəlinir. Yaqub peyğəmbər Yusif və Bin Yamini digər övladlarından fərqləndirirdi. Atalarının bu məhəbbəti Yusifə qarşı nifrətə yol açırdı. Bu münasibətlə Qurani-Kərimdə deyilir: "Bir zaman (Yusifin qardaşları öz aralarında) belə demişdilər: "Biz (bir-birimizə bağlı, sayca çox, güclü) bir dəstə olduğumuz halda, Yusif və onun (atabir-anabir) qardaşı (Bin Yamin) atamıza daha əzizdirlər. Həqiqətən, atamız açıq-aşkar səhv edir!" [Yusif surəsi, 8-ci ayə].

Bibliya və Qurani-Kərimdə göstərilir ki, qardaşları Yusifin məziyyətləri və ataları tərəfindən sevildiyini gördükdə ona paxıllıq, nifrət etdilər. Bibliyada bu barədə deyilir: "Qardaşlar bir-birlərinə dedilər: "Budur, yuxu görənimiz gəlir. İndi gəlin onu öldürüb bir quyuya ataq, sonra da deyək ki, vəhşi heyvan onu parçaladı. Onda görərik, yuxuları necə çin çıxır". Ruven bunu eşidib Yusifi onların əlindən qurtarmaq üçün dedi: "Gəlin ona toxunmayaq". Ruven onlara "qan tökməyin, onu çöldə olan bu quyuya atın, ancaq ona toxunmayın" dedi. Bunu ona görə deyirdi ki, Yusifi qardaşlarının əlindən qurtarıb atasının yanına qaytarsın. Yusif qardaşlarının yanına çatanda onlar Yusifin əyninə geydiyi alabəzək paltarı dartıb çıxartdılar. Özünü də götürüb quyuya atdılar. Quyu boş idi, orada su yox idi" ["Yaradılış" kitabı, 37: 19-24].

Bibliyada göstərilir ki, atalarının Yusifə olan xüsusi istəyinə paxıllıq edən qardaşlar onu öldürməyib, qul kimi satmaq və bu şəkildə cəzalandırmaq istədilər. Burada qardaşların əsl məqsədi sataraq mənfəət əldə etmək yox, bununla atalarına və Yusifə əzab vermək, cəzalandırmaq idi.

Bibliyada əksini tapmış bu hekayə Qurani-Kərimdə özünəməxsus şəkildə ifadə olunmuşdur: "Onlar axşamüstü ağlaya-ağlaya atalarının yanına gəldilər. Və dedilər: "Ata! Biz (at çapmaq, yaxud qaçışıb-ötüşmək və ya ox atmaqda) bir-birimizlə yarışmaq üçün (səhraya) getmişdik və Yusifi şeylərimizin (libaslarımızın) yanında qoymuşduq. Bir də xəbər tutduq ki, qurd onu yemişdir. İndi biz doğru danışsaq da, sən bizə inanmayacaqsan!" Onlar (Yusifin) köynəyinin üstünə yalandan bir qan (ləkəsi yaxıb) gətirmişdilər. (Yəqub) dedi: "Xeyr (heç də dediyiniz kimi deyildir), sizin öz nəfsiniz sizi bu işə sövq etmişdir (çirkin əməlinizi sizə gözəl göstərmişdir). Mənə yalnız gözəl (tükənməz, dözümlü) səbr gərəkdir. Dediklərinizdən (Yusif barəsində dediklərinizin yalan olduğunu sübut etməkdən) ötrü ancaq Allahdan kömək diləmək lazımdır!" Nəhayət, (Mədyəndən Misirə ge-

dən) bir dəstə müsafir (karvan əhli bu yerə) gəlib suçularını (su dalınca) göndərdilər. (Suçu) qabını suya salan kimi: "Müjdə! Bu bir oğlandır! – dedi. Onlar (müsafirlər və ya qardaşları Yusifi) satdıq bir şey (ticarət malı) kimi gizlədib saxladılar. Allah onların nələr etdiyini (Yusifin başına nə oyunlar açdığını) biləndir! (Yusifi təqib edən qardaşları işin nə yerdə olduğunu bildikdə: "Bu bizim qaçmış köləmizdir! – deyə) onu dəyərsiz bir qiymətə – bir neçə dirhəmə satdılar və (bu işdə pul qazanmaq deyil, yalnız Yusifdən xilas olmaq, onu atası Yəqubdan ayırmaq məqsədini güddükləri üçün qardaşlarını baha məbləğə satmağa) tamah göstərmədilər" [Yusif surəsi, 16-20-ci ayələr].

Qətran Təbrizi məmduhunu tərifləyərkən Yusifin hekayəsindən məharətlə istifadə etmişdir. Şair Gəncə Şəddadilər sülaləsindən olan Əbülmüzəffər Fəzluna (1066-1089) yazdığı mədhiyyədə öz məmduhunu Yusifin qardaşları tərəfindən quyuya atılması, qul kimi satılması, Misir zindanında çəkdiyi əzablarla, hökmranlığa yüksəlməsi, oğlunun acısından Yəqubun kor olması, Züleyxanın qarşılıqsız məhəbbətilə müqayisə etmişdir. Qətran Təbrizi yazmışdır:

*Yusifi qardaşları başı üstə quyuya atmadılarmı?!*
*Məgər tacir onu aparıb qul kimi Misirdə satmadımı?!*
*Misir zindanında çoxları var idi, Allah öz lütfünü ancaq ona bəxş etdi,*
*Misir torpağını, Şam mülkünü Sənaya qədər ona bağışladı.*
*Yəqub kimi Yusifin qəmilə ağlamaqdan kor olduq,*
*Züleyxa kimi qocaldıq, buna haqqımız var idi. [3, s.31]*

Qətran Təbrizi Şəddadilər sülaləsindən olan Əbdülxəlil Cəfəriyə yazdığı mədhində öz məmduhunu gözəl xasiyyətdə, uzaqgörənlikdə Yusifə bənzədir və bədxahların məkrini onun quyuya atılması ilə müqayisə edir:

*Ey xasiyyət, xilqət və səltənətdə quyuya düşən Yusif kimi olan,*
*Aləmin sirrini bildiyin üçün bu qədər dirəm bağışlayırsan. [3, s.241]*

Dini hekayələrdə bildirilir ki, tacirlər Yusifi özlərilə Misirə apardılar. Qurani-Kərimdə Yusifin vəzirin hörmətini qazanması barədə deyilir: "(Yusifi) Misirdə satın alan (padşahın Əziz ləqəbli vəziri Qitfir) öz zövcəsinə belə dedi: "Ona hörmət et (yaxşı bax). Ola bilsin ki, bizə fayda versin və ya onu oğulluğa götürək!" Beləliklə, Yusifi o yerdə (Misirdə) yerləşdirdik, həm də ona yuxu yozmağı öyrətdik. Allah Öz işində (əmrində) qalibdir (istədiyini edəndir), lakin insanların əksəriyyəti (bunu) bilməz! " [Yusif surəsi, 21-ci ayə].

Yusif zəkası, ağlı ilə Misirdə sahibinin yanında rəğbət qazanaraq onun evində yaşayır. Xarici görkəmi, gözəlliyilə seçilən bu gəncə hakimin arvadı aşiq olur. Əxlaqlı, imanlı Yusif qadının davranışlarına qarşılıq vermir. Bunun qisasını almaq məqsədilə hakimin arvadı onu şərləyir, Yusifi zindana saldırmaq istəyir.

Bibliyada bildirilir ki, hökmdar arvadının ittihamlarına inanaraq qəzəblənir və Yusifi zindana saldırır: "Ağası Yusifi götürüb padşahın məhbuslarının saxlanıldığı zindana təhvil verdi. Yusif zindanda qaldı. Ancaq Rəbb Yusiflə idi və ona xeyirxahlıq göstərdi. O, zindanın baş nəzarətçisinin gözündə lütf tapdı. Zindanın baş nəzarətçisi zindanda olan bütün məhbusları Yusifin ixtiyarına verdi. Orada görülən hər işə o başçılıq edirdi" ("Yaradılış" kitabı, 39: 20-22).

Qurani-Kərimdə isə Yusifin hekayəsinin bu məqamı bir qədər fərqli göstərilmişdir. Həqiqət aydınlaşaraq üzə çıxır və hakim həmin hadisənin yayılmamasını əmr edir. Qurani-Kərimdə deyilir: "Ey Yusif! Sən bu işi açıb ağartma. Sən də (ey qadın) günahına görə (Allahdan) bağışlanmanı dilə. Çünki sən, həqiqətən, günah edənlərdənsən" [Yusif surəsi, 29-cu ayə].

Qətran Təbrizi Əbülmüzəffər Fəzluna yazdığı mədhiyyədə onun xarici görkəmini Yusifin gözəlliyi ilə müqayisə etmişdir:

*Şahənşah Əbdülmüzəffər Yusif üzlü, Yusif xasiyyətlidir,*
*Gözəl görkəmli, gözəl sözlüdür, zahiri də, batini də gözəldir. [3, s.31]*

Qətran Təbrizi Mir Əbülhica Mənuçehrə yazdığı mədhiyyəsində isə deyir:

*Yusifin hüsnü onda var, Yusif kimi də kömək olunur,*
*Məhz buna görə də hər bir kor adam onu görcək gözünə işıq gələr. [3, s.83]*

Qətran Təbrizi Şəddadilər sülaləsindən olan Əbdülxəlil Cəfəriyə yazdığı mədhində deyilir:

*Ey surəti Yusif camalından da gözəl olan,*
*Ey xisləti Səlman (Məhəmməd peyğəmbərin əshabələrindən birisidir – Q.B.)*
*xislətindən daha yaxşı olan. [3, s.244]*

Rəvayətdə bildirilir ki, Züleyxanın Yusifə aşiq olması barədə söz-söhbət şəhərdə qadınlar arasında yayılır. Züleyxa haqqında yayılan bu dedi-qoduda özünü haqlı göstərmək məqsədilə Yusiflə qadınları qarşılaşdırmaq istəyir. Qurani-Kərimdə deyilir: "Şəhərdəki qadınlar dedilər: "Vəzirin övrəti cavanı (cavan qulunu) tovlayıb yoldan çıxartmaq (onunla yaxınlıq etmək) istəyir. (Yusifin) məhəbbəti onun bağrını qan etmişdir. Biz onun açıq-aşkar (doğru) yoldan çıxdığını görürük. (Züleyxa qadınların) gizli dedi-qodularını (məkrini) eşitdikdə onlara xəbər göndərib ziyafətə dəvət etdi, onlar üçün gözəl (mütəkkələrlə, xalılarla döşənmiş bir otaqda ləziz təamlardan ibarət) bir məclis düzəltdi. Onların hər birinə (meyvə kəsib soymaq üçün) bir bıçaq verdi, sonra (Yusifə): "Onların qarşısına çıx!" – deyə əmr etdi. (Qadınlar Yusifi) gördükdə (gözəlliyinə heyran olub) onu həddindən artıq təriflədilər və (özlərini itirib əllərindəki turuncun qabığını soymaq əvəzinə) əllərini kəsdilər. Onlar: "Aman Allah! Bu ki, bəşər deyildir. Bu ancaq (Allah yanında) möhtərəm (əziz) olan bir mələkdir!" – dedilər [Yusif surəsi, 30-31-ci ayələr].

Qətran Təbrizinin məsnəvilərinin birində Yusifin gözəlliyindən özlərini itirərək əllərini kəsən misirli qadınlar haqqında danışılır:

*Bir yusifüzlüdən ötrü ürəyim nalə etməkdədir,*
*O mənim ürəyimi Misir qadınlarının əli kimi etdi.*
*Başlanğıcda bir öpüşlə ürəyimi sevindirdi,*
*Bu gün isə ürəyimi qəm oxuna hədəf etmişdir. [3, s.430]*

Qadınların cəhalətindən və şərindən qorunmaq istəyən Yusif Allahdan zindana salınmasını diləyir. Bu barədə Qurani-Kərimdə deyilir: "(Yusif) dedi: "Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən xoşdur. Əgər (bu qadınların) hiyləsini məndən dəf etməsən, mən onlara meyl edər və cahillərdən olaram". Rəbbi (Yusifin) duasını qəbul buyurub (qadınların) məkrindən qurtardı. Həqiqətən, O, (hər şeyi) eşidəndir, biləndir! (Vəzir və ailəsi Yusifin günahsız olduğunu sübut edən) dəlilləri (Yusifin köynəyinin arxadan cırılmasını, üzünün cırmaqlanmasını, qadınların turunc əvəzinə əllərini kəsməsini və i.a.) gördükləri halda, yenə də onu bir müddət (dedi-qodu kəsilənədək) zindana salmaq qərarına gəldilər. (Beləliklə, Yusif zindana atıldı)" [Yusif surəsi, 33-35-ciayələr]. Tanrı onun arzusun yerinə yetirərək zindana saldırır.

Qətran Təbrizi qitələrinin birində bu hadisəni yada salaraq bildirmişdir:

*Gözəl səsimə görə bülbül kimi daima nalə etməliyəm.*
*Hüsn-camalıma görə Yusif kimi həmişə zindandayam. [3, s.407]*

Qətran Təbrizinin Rəvvadilər sülaləsindən olan Əbu Mənsur Bəhsudana yazdığı mədhiyyəsində deyilir:

*O çənəsinin quyusu və zülfü məni heyran etmişdir,*
*Bu Yusifdir, ya zülfləri? Bu zənəxdandır, ya da ki, zindan?! [3, s.269]*

Bibliyada və Qurani-Kərimdə zindana atılan Yusifin burada şahı zəhərləməkdə ittiham olunmuş saqi və aşpazla qarşılaşması, onların gördükləri yuxunu yozması, şərab paylayana zindandan

çıxarkən "məni ağanın yadına sal" deməsinə baxmayaraq, çıxdıqdan sonra Yusifin sözünü unutması, bu səbəbdən də, Yusifin bir müddət zindanda qalması, padşahın yuxusunu heç kəsin yoza bilməməsi, birdən şərabpaylayanın yadına Yusifin düşməsi, zindana gedərək həmin yuxunu Yusifə yozdurması, Yusif bu yuxunun ölkədə yeddi il bolluq və yeddi il qıtlığa işarə etdiyini, bunu eşidən hakimin onu hüzuruna çağırması ilə bağlı hekayə göstərilmişdir. Qurani-Kərimdə Züleyxanın məkri açıq şəkildə etiraf olunmuşdur: "(Bunları eşidən) hökmdar: "Onu mənim yanıma gətirin!" – dedi. (Onun göndərdiyi) elçi (Yusifin) yanına gəldikdə o: "Ağanın yanına qayıdıb soruş ki, (Züleyxanın məclisində) əllərini kəsən o qadınların məqsədi nə idi? Həqiqətən, Rəbbim onların məkrini biləndir!" (Padşah həmin qadınları çağırtdırıb) soruşdu: "Yusifi tovlayıb yoldan çıxartmaq istəməkdə məqsədiniz (qəsdiniz) nə idi? (Qadınlar: ) "Allah eləməsin! Biz onun barəsində pis bir şey bilmirik!" – deyə cavab verdilər. Vəzirin övrəti (Züleyxa) dedi: "Artıq indi həqiqət bəlli oldu. Yusifi tovlayıb yoldan çıxartmaq istəyən mən idim. O, şübhəsiz, doğru danışanlardandır!" [Yusif surəsi,, 50-51-ci ayələr].

Daha sonra Yusifin zəkasını və Tanrının seçilmiş bəndələrindən olduğunu görən hökmdarın qərarı barədə Qurani-Kərimdə deyilir: "Padşah dedi: "(Yusifi) yanıma gətirin, onu özümə ən yaxın (adam) edəcəyəm!" Sonra (padşah) onunla söhbət etdikdə: "Sən bu gün (bu gündən) yanımızda mövqe sahibisən, etibarlı bir şəxssən!" – dedi. (Yusif) dedi: "Məni bu yerin (Misirin) xəzinələrinə məmur təyin et (Misir xəzinələrini mənə tapşır), çünki mən (özümə etibar edilən mal-dövləti) qoruyanam, (işləri idarə etməyi) bilənəm!" Beləliklə, Yusifi o yerdə (Misir torpağında) mövqe (ixtiyar) sahibi etdik. O, (Misirdə) istədiyini edirdi (istədiyi yerdə mənzil sala bilirdi). Biz istədiyimizə mərhəmətimizi nəsib edər, yaxşı işlər görənlərin mükafatını zay etmərik" [Yusif surəsi,, 54-56-cı ayələr].

Yusifin hakimin rəğbətini qazanaraq ölkəni idarə etməsilə bağlı fikirlərə Qətran Təbrizi yaradıcılığında rast gəlinir.

Qətran Təbrizi Rəvvadilər sülaləsindən olan Əbunəsr Məmlana yazdığı mədhiyyədə Yusifin quyuya atılması, tacirlərə qul kimi satılaraq Misirə aparılması və yaşadığı ağır çətinliklərdən sonra taxta çıxmasını xatırladır:

*Nə qədər ki, Yusifin gözəllik və tərifi danışılır,*
*Nə qədər ki, Qarunun sözü və tərifi dillər əzbəridir.*
*Dostların Yusif kimi quyudan taxta çatsınlar!*
*Düşmənlərin Qarun kimi taxtdan quyuya düşsünlər! [3, s.138]*

Qətran Təbrizi Əmidəlmülk Əbunəsrə yazdığı mədhiyyədə məmduhunun yaşadığı çətinliklərdən qurtularaq Yusif kimi əsirlikdən hakimliyə qədər yüksəlməyini arzulayır:

*Ey Yəqubun Yusifindən də gözəl olan!*
*Nə olaydı sənin aqibətin də onunku kimi olaydı!*
*O (Yusif), əsirlikdən Şam mülkünə yetişdi,*
*Sən də bu tələyə düşməyinin əvəzinə Rum mülkünə çatasan. [3, s.199]*

Qətran Təbrizinin Əbuмənsura yazdığı mədhiyyədə məmduhunun qüdrətini göstərərkən gözəl bənzətmədən istifadə etmişdir:

*Xeyirxahlarını Yusif kimi taxta yetirərsən,*
*Bədxahlarını Qarun kimi quyuya salarsan. [3, s.130]*

Qətran Təbrizinin Əmir Əbülhica Mənuçehrə yazdığı mədhiyyədə yenə də Yusifin taxta çıxmasını xatırladır:

*Dostlarına Yusif kimi Misir mülkü bağışlayar,*
*Düşmənlərini Firon kimi timsah ağzına atar. [3, s.180]*

Qətran Təbrizinin Əbülxəlilə yazdığı mədhiyyədə Yusifin zindandan çıxaraq taxta yüksəlməyini yada salır:

*Əvvəllər Yusif də Misirdə elə bu cür zindanda idi,*
*Nəhayət ona Misir və Şam mülkü nəsib oldu. [3, s.203]*

Qətran Təbrizi Əbu Nəsr Məhəmmədə mədhiyyəsində məmduhunun həyatın təlatümlərilə qarşılaşdığını, onun dövranın çətinlikləri̇lə də, zirvəsilə də üzləşdiyini anlatmışdır:

*Yusif üzlüsən, eləcə də quyudan çıxan Yusif kimisən,*
*Çünki, həm quyu gördün, həm də səltənətə yetişdin. [3, s.306]*

Qərtan Təbrizi şah Əbu Mənsur Məmlana yazdığı mədhiyyəsində onun ədalətini Yusiflə müqayisə edir:

*Qədim insanlar gözəllik və ədalət məsələlərində*
*Hamısı Yusifdən və Ənuşirəvandan danışıblar.*
*Elə ki, o gözəl ortaya çıxdı, Yusifin adı yox oldu,*
*Elə ki, bu şah ortaya çıxdı, Ənuşirəvanın adı unuduldu.*
*Şah Əbu Mənsur Məmlanın ədalət və insafının çoxluğu*
*Keçmiş padşahların adını dünya səhifəsindən sildi. [3, s.284]*

Qətran Təbrizi şah Əbülxəlil Cəfəriyə yazdığı mədhiyyədə Yusifi "quyu peyğəmbəri" adlandıraraq şahı onun kimi bilici və ədalətli saymışdır:

*Quyu peyğəmbəri kimi gözəl və bilicisən*
*Ölkənin uca taxtında da quyu peyğəmbəri kimi ol. [3, s.355]*

Qurani-Kərimdə Yusifin yozduğu hakimin yuxusunun doğru çıxması, yeddi il bolluğun ardından dünyada ərzaq qıtlığı yaranması, Yaqub Misirdə taxıl olduğunu eşidərək oğlanlarını ora göndərməsi, Yusif qardaşlarını görərək tanıması, Yusifin taxılı qardaşlarına gələn dəfə gəldikdə atabir qardaşları Bin Yamini özlərilə Misirə gətirmələri şərtilə verməsi, Kənan torpağında taxıl yenidən tükəndikdə ataları Binyaminin onlarla yenidən Misirə getməsi, padşahın camının Bin Yaminin çuvalından çıxması, Yusifin bunu əsas gətirərək Bin Yamini yanında saxlaması ilə bağlı hekayə əksini tapmışdır [1, s.80-81].

Qurani-Kərimdə Yəqubun yenidən övlad acısı yaşaması və gözlərinin nurunu itirməsi haqqında deyilir: "(Bu sözlərdən sonra Yəqub) onlardan (oğlanlarından) üz döndərdi. (Bin Yaminin başına gələn bu iş onun yadına sevimli oğlu Yusifin müsibətini saldı) və: "(Heyf sənə) yazıq Yusif!" – dedi. Dərd-qəmdən (həmişə ağlamaqdan Yəqubun) gözlərinə ağ gəldi. O, (bütün dərdini) içində çəkirdi (oğlanlarına bildirmirdi)" [Yusif surəsi, 84-cü ayə].

Qardaşlar yenidən Misirə gəldikdə Yusif quyuya salınma hekayəsini yada salaraq özünü tanıdır. Qurani-Kərimdə deyilir: "Bu köynəyimi götürüb aparın, atamın üzünə sürtün (atın), o (yenidən) görməyə başlayar. Bütün ailənizi də yığıb yanıma gəlin!" Karvan (vətənə qayıtmaq üçün Misirdən) ayrılanda ataları (Yaqub yanındakı övladlarına) dedi: "Əgər məni səfeh hesab etməsəydiniz (və ya yalançı hesab edib danlamasaydınız), deyərdim ki, Yusifin ətrini alıram!" Onlar: "Allaha and olsun ki, sən yenə öz köhnə yanlışlığında (şaşqınlığında) qalmaqdasan!" dedilər. Muştuluqçu gəlib köynəyi (Yəqubun) üzünə sürtən kimi onun gözləri açıldı və o: "Məgər sizə demədimmi ki, mən Allahdan (gələn vəhy ilə) sizin bilmədiklərinizi bilirəm!" söylədi" [Qurani-Kərim, 12: 93-96].

Övlad acısından Yəqubun gözlərinin nurunu itirməsi klassik ədəbiyyatımızda da xatırlanmışdır. Qətran Təbrizi Əbumənsur Vəhsudana yazdığı mədhiyyədə övlad acısını yaşayan, bu kədərdən ağlayaraq gözləri kor olan Yəqubu xatırlayır:

*İtgin düşmüş Yusifi görmək arzusu ilə Yəqubun*
*Zar-zar ağlamaqdan gözləri tutuldu. [3, s.149]*

Qətran Təbrizi qitələrinin birində Yusifin müəmmalı yoxa çıxması və dərdli atanın acısını yada salır:

*Ey hüsndə Yusif kimi olan, sən qoyub gedəli,*
*Mən də Yəqub kimi qəm və kədərlərə mübtəlayam.*
*Bu aşiq öz canı ilə sənin xiridarın olsa da,*
*Sən Yusif kimi ondan qaçırsan. [3, s.413]*

## Nəticə / *Conclusion*

Klassik Azərbaycan ədəbiyyatında Qətran Təbrizi farsdilli yaradıcılığa malik ilk şair və gözəl mədhiyyələr müəllifi kimi qeyd olunur. Şairin irsinə nəzər saldıqda onun öz məmduhunun məziyyətlərini sadalayarkən müxtəlif bənzətmələrdən, üslublardan istifadə etməsi aydın görünür. Bu bənzətmələrdən biri də, Qətran Təbrizinin dini hekayələrə müraciətidir. Şairin irsində ən çox rastlanan təşbeh Yaqub peyğəmbərin oğlu Yusifin hekayəsidir. Bibliya və Qurani-Kərimdə rast gəlinən bu hekayəyə orta əsrlər Şərq ədəbiyyatında tez-tez müraciət edilmişdir. Qətran Təbrizi öz məmduhunu tərifləyərkən onu dözümlülükdə, imanda, ağılda, gözəllikdə, ədalətdə Yusifə bənzətmişdir. Onun bu üslubdan istifadəsi şeirlərinin bədii xüsusiyyətlərini daha maraqlı, təsirli etmişdir.

## Ədəbiyyat / *References*


1. Bəlağі, S. Quran qissələri. Fars dilindən tərcümə edən Möhsün Nağısoylu. – Bakı, 1992
2. Bibliya. Azərbaycan Bibliya icması tərəfindən tərcümə.
3. Qətran, T. Divan. Fars dilindən çevirəni və çapa hazırlayan Qulamhüseyn Beqdeli. – Bakı, 1967.
4. Quran. Ərəb dilindən Azərbaycan dilinə tərcümə edənlər Z.M.Bünyadov, V.M.Məmmədəliyev. – Bakı, 2006
5. Mirzəyev, A. “Yusif və Züleyxa” mövzusu. Azərbaycan ədəbiyyatı tarixi. III c. – Bakı, 2020.


## Рассказ о Юсуфе в наследии Катран Тебризи


**Улкер Закиргызы (Мамедова)**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: u.z.m-9-9@ mail.ru



**Резюме.** Религиозные рассказы являются одним из широко используемых сюжетов в средневековой азербайджанской литературе. Статья написана на основе рассказа о Юсуфе (Иосиф), сына пророка Якуба (Иаков). Здесь прежде всего показана жизнь Юсуфа и события, которые с ним происходили, на примерах из Библии и Корана. Затем были представлены выражения и сравнения, отражающие каждый этап этой истории в творчестве Катран Тебризи. Зависть его братьев к Юсуфу, бросание в колодец, быть проданным в рабство купцам, доставленным в Египет, хитрость Зулейхи, заключение в тюрьму, история его освобождения из тюрьмы и возведения на престол была использована поэтом, чтобы показать достоинства своего мамдуха. Рассказы в религиозных книгах даны в сравнительно-параллельной форме с соответствующими примерами из творчества Катрана Тебризи.


**Ключевые слова:** Средние века, Азербайджанская литература, Катран Тебризи, Юсуф, религиозный рассказ